Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 3-4
(7240-7241) ❁ Cümə axşamı, 8 yanvar 2015-ci il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik

# İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni gətirilmiş "Boeing-787-8" sərnişin təyyarəsinə baxıb



***Yanvarın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Beynəlxalq Aeroportunda "Azərbaycan Hava Yolları" (AZAL) Qapalı Səhmdar Cəmiyyətinə məxsus yeni gətirilmiş "Boeing-787-8" Dreamliner sərnişin təyyarəsinə baxıblar.***

"AZAL" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov dövlətimizin başçısına yeni təyyarə barədə məlumat verdi.

"Boeing-787-8" Dreamliner ən müasir tipli hava gəmilərindəndir. Son texniki nailiyyətləri özündə birləşdirən layner daha uzaq məsafələrə uçuşlar həyata keçirməyə imkan yaradır. Ən yeni texnologiyaların tətbiq edilməsi nəticəsində isə təyyarədə yüksək mənfəətli istismar, yanacağa qənaət və sərnişinlər üçün rahat şərait var. Bu təyyarə həm texniki, həm də xidmət cəhətdən digər hava gəmilərindən fərqlənir. Onun çəkisi analoji təyyarələrlə müqayisədə daha yüngüldür. Buna baxmayaraq, uçuş məsafəsi və yükqaldırma imkanı digərlərindən çoxdur və 20 faiz az yanacaq sərf edir. Geniş gövdəli bu təyyarə 210 sərnişin tutumuna malikdir. Fasiləsiz 15 saat uçuş yerinə yetirən bu layner birbaşa 15 min 700 kilometr məsafə qət edə bilir. Dreamliner bu göstəricilərə görə hazırkı sərnişin təyyarələri arasında liderdir. Laynerin sərnişin salonunda üç növ oturacaq və onlara uyğun fərqli xidmət sinifləri mövcuddur. Təyyarənin bütün aeronaviqasiya və sərnişin salonunun audio-video sistemləri ən son texnoloji yeniliklər əsasında tərtib olunub. Bu təyyarə ilə ilk mərhələdə Bakıdan Pekinə, Londona və Avropanın digər şəhərlərinə uçuşlar yerinə yetiriləcək. Bu ilin yay mövsümündən isə hava gəmilərinin Nyu-York və yeni açılacaq hava xətlərində istismarı gözlənilir.

Belə hava layneri MDB məkanında və bir sıra Şərq ölkələri arasında ilk dəfə Azərbaycana gətirilib. Son illərdə digər sahələrdə olduğu kimi, mülki aviasiya sahəsində də uğurlu inkişaf mərhələsi yaşanır. Bu inkişaf özünü həm yeni aerovağzal komplekslərinin inşasında, həm də yeni müasir hava gəmilərinin alınmasında daha aydın göstərir. Bu baxımdan "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin aviaparkının ən müasir "Boeing-787-8" Dreamliner sərnişin təyyarələri ilə gücləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. "Azərbaycan Hava Yolları"nın və ümumilikdə, Azərbaycan mülki aviasiyasının nailiyyətləri Prezident İlham Əliyevin bu sahəyə birbaşa göstərdiyi diqqət və qayğının nəticəsidir.




**AzərTAc.**

# 20 Yanvar faciəsinin 25-ci ildönümünə hazırlıq genişlənir

Qanlı 20 Yanvarın 25-ci ildönümü yaxınlaşmaqdadır. Azərbaycan xalqı hər il bu ümumxalq hüzn gününü tariximizin ən faciəli günü, eyni zamanda ölkəmizi müstəqilliyə aparan şərəfli günü və qəhrəmanlıq səhifəsi kimi qeyd edir.

25 il bundan əvvəl yanvar ayının 19-dan 20-nə keçən gecə Ermənistanın Azərbaycanın əzəli torpaqlarına qarşı təcavüzkar hərəkətlərindən hiddətlənərək etiraz əlaməti kimi Bakı şəhərinin küçələrinə çıxan əliyalın dinc əhaliyə qarşı ermənilərə havadarlığını nümayiş etdirən sovet qoşun birləşmələri hərbi əməliyyat həyata keçirdilər. Dinc əhalini qanına qəltan etdilər. Həmin əməliyyatlar nəticəsində 140-a qədər qoca, cavan, uşaq, qız, gəlin şəhid oldu, onlar torpağı, azadlığı,şərəf və ləyaqəti həyatlarından üstün tutdular. Bu hadisə dövlətin öz vətəndaşlarına qarşı indiyə qədər görünməmiş təcavüzü, ağır cinayət hadisəsi idi.

Azərbaycan xalqı indi hər il şəhidlərimizin əziz xatirəsini yad edir, onların ruhlarına dərin ehtiramlarını bildirirlər. Bu il də respublikamızda 20 Yanvar faciəsinin 25-ci ildönümünün keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasının rəhbəri Ramiz Mehdiyevin17 dekabr 2014-cü il tarixli sərəncamı ilə geniş tədbirlər planı təsdiq edilmişdir. Sərəncamın icrası ilə bağlı Qəbələ rayonunda da geniş tədbirlər keçirilməsi nəzərdə tutulur. Bu barədə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev 25 dekabr 2014-cü il tarixdə sərəncam imzalamışdır. Tədbirlər planında idarə və müəssisələrdə 20 Yanvar faciəsi ilə əlaqədar yığıncaqlar, dəyirmi masalar keçiriləcək, ədəbi-bədii kompozisiyalar, təhsil müəssisələrində xüsusi dərs saatları təşkil olunacaqdır. Yanvarın 20-də rayon ərazisində Azərbaycanın dövlət bayraqları təlimata uyğun endiriləcək, saat 12-00-da bir dəqiqəlik sükut keçiriləcək, avtomobillərdən səs siqnalları veriləcək və bir sıra digər tədbirlər həyata keçiriləcəkdir.

Həmin gün əmək kollektivlərinin, təhsil, səhiyyə, mədəniyyət idarələrinin, xidmət təşkilatlarının, ictimai təşkilatların işçilərinin, şəhidlər xiyabanına ziyarəti təşkil olunacaqdır. Şəhidlərin məzarları önünə əklil qoyulacaq, gül dəstələri düzüləcək, əziz xatirələri yad olunacaqdır.

Tədbirlər planında şəhidlər xiyabanına gəliş-gedişin rahat və sərbəst olması üçün hər cür lazımi şərait yaradılması, hərəkət marşurutlarının müəyyən edilməsi və digər yardımçı tədbirlərin görülməsi də nəzərdə tutulmuşdur.

**Nadir ATAKİŞİYEV.**